

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 oktyabr 2026-cı il №76 (3078) https://mod.gov.az Qiyməti 30 qəpik

Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,

Qardaş Türkiyə Respublikasının milli bayramı - 29 Oktyabr Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan ilə Türkiyəni tarixin sınaqlarından çıxmış əsl dostluq və qardaşlıq telləri bağlayır. 2021-ci ildə Sizinlə birgə imzaladığımız Şuşa Bəyannaməsi ilə ölkələrimiz arasında münasibətlər ən yüksək pilləyə – müttəfiqlik səviyyəsinə çataraq keyfiyyətcə yeni məzmun və mahiyyət kəsb etmişdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə Respublikasına və xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2026-cı il

Ali Baş Komandan İlham Əliyev və tarixi Zəfərə aparan yol



Tarix elə anlar yaradır ki, həmin anlarda qəbul edilən qərarlar bütöv bir xalqın gələcəyini müəyyənləşdirir. Belə məqamlarda siyasi iradə, qətiyyət, düzgün düşünülmüş strategiya və xalqın birliyi həlledici əhəmiyyət daşıyır. Azərbaycan xalqının yaddaşına əbədi həkk olunan 44 günlük Vətən müharibəsi də bu baxımdan müasir tariximizin ən mühüm hadisələrindən biridir. Bu müharibə uzun illər işğal altında qalmış torpaqlarımızın azad edilməsi ilə yanaşı, Azərbaycan dövlətinin gücünü, xalqımızın iradəsini və ordumuzun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi.

Qazanılan tarixi Zəfərin arxasında illərlə aparılan ordu quruculuğu, iqtisadi inkişaf, beynəlxalq münasibətlərin düzgün qurulması, milli həmrəyliyin möhkəmləndirilməsi və Vətən sevgisi dayanırdı. Bu prosesdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi iradəsi və qətiyyətli mövqeyi mühüm rol oynadı. Dövlət başçısının qarşıya qoyduğu məqsəd, ordunun imkanlarının gücləndirilməsi istiqamətində görülən işlər və müharibə günlərində nümayiş etdirilən ardıcıl mövqe Qələbəyə aparan yolun əsas istiqamətlərini müəyyənləşdirdi.

Azərbaycanın Zəfər tarixini yalnız döyüş meydanında əldə edilən uğurlarla izah etmək düzgün olmazdı. Bu Qələbə həm də uzunmüddətli hazırlığın, siyasi qərarların, hərbi gücün və xalqın vahid amal ətrafında birləşməsinin nəticəsi idi.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkəmizin müstəqilliyinin ilk illərindən qarşıda duran əsas məqsədlərdən biri idi. Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, yüz minlərlə insanın doğma yurdundan didərgin düşməsi və münaqişənin uzun illər həllini tapmaması ölkənin qarşısında ciddi vəzifələr qoyurdu. Bu vəziyyətdə Azərbaycanın həm iqtisadi imkanlarını artırması, həm də müdafiə qabiliyyətini gücləndirməsi vacib idi.

İlham Əliyevin prezidentliyi dövründə də ordu quruculuğu dövlət siyasətinin əsas istiqamətlərindən biri oldu. Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, hərbi qulluqçuların peşəkarlığının artırılması, müasir silah və texnikanın alınması, hərbi təhsil sisteminin inkişaf etdirilməsi istiqamətində işlər aparıldı.

(Ardı 3-cü səhifədə)



Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyə xalqının Cümhuriyyət Bayramını təbrik edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm!”.

Zəfər Muzeyi xalqımızın sarsılmaz iradəsinin və milli birliyinin rəmzidir

Zəfər Muzeyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli “Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında” Sərəncamına əsasən, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı Şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb. Şanlı Qələbəmizin hekayəsini - Azərbaycan xalqının illər boyu arzuladığı Vətənə qayıdış ümidinin gerçəkləşməsini, birliyin, gücün və səbirin ən ali təntənəsini təqdim edən bu muzeydə doğma torpaqlarımızın bütövlüyü uğrunda canından keçərək tarix yazan şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunur. Eləcə də muzeyi əhatə edən divarın üzərində ehtiram əlaməti olaraq 44 günlük Vətən müharibəsində şəhid olmuş 2914 qəhrəmanın adı həkk edilib.

(Ardı 4-cü səhifədə)



İkinci Dünya müharibəsinin cəsur qadınları

Qadın deyəndə ilk olaraq zəriflik, qayğı və ailə anlayışları yada düşür. Amma tarixdə elə dövrlər olub ki, qadınlar ən ağır sınaqdan keçməli, hətta silaha sarılaraq döyüş meydanına çıxmalı olublar. Müharibələr göstərib ki, cəsarət və dözüm yalnız kişilərə aid xüsusiyyət deyil. Qadınlar da təhlükə qarşısında geri çəkilməyib, Vətən uğrunda canları bahasına mübarizə aparıblar.

Qadınların döyüşlərdə iştirak etməsi yeni hadisə deyildi. Hələ qədim dövrlərdə Afina və Sparta uğrunda gedən müharibələrdə qadın döyüşçülərin olduğu haqqında məlumatlar var. Makedoniyalı İsgəndərin yürüşlərində də qadınların onun qoşunları ilə birlikdə hərəkət etdiyi tarixi mənbələrdə qeyd olunur. Rus tarixçisi Nikolay Karamzin isə qədim slavyan qadınlarının döyüşlərdə iştirakından yazıb. Onun məlumatlarına əsasən, slavyan qadınları bəzən ərləri və ataları ilə birlikdə müharibəyə gedirdilər. Hətta 626-cı ildə Konstantinopolun işğalı zamanı öldürülən slavyanlar arasında qadınların da olduğu bildirilir.

XX əsrdə müharibələr daha geniş miqyas aldı və qadınların hərbi fəaliyyətdə iştirakı da artdı. Birinci Dünya müharibəsi zamanı İngiltərədə qadınlar hərbi xidmətə qəbul edilməyə başladılar. Onlar nəqliyyat, rabitə və digər sahələrdə çalışırdılar. Bu proses sonrakı müharibələr zamanı daha da genişləndi.

(Ardı 7-ci səhifədə)

Heydər Əliyev adına Hərbi İnstitutun kursantları Koreya Respublikasına səfər ediblər

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun kursantları 19-24 oktyabr 2026-cı il tarixlərində beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində Koreya Respublikasında səfərdə olublar.



Milli Müdafiə Universiteti xəbər verir ki, səfər zamanı kursantlar Koreya Hərbi Hava Qüvvələri Akademiyasının fəaliyyəti və tədris prosesi ilə tanış olub, akademiyanın komandanlığı ilə görüşüblər. Görüş çərçivəsində həmçinin Heydər Əliyev adına Hərbi İnstitutun tarixi, fəaliyyəti və təhsil imkanları barədə məlumat verilib.

Proqram çərçivəsində kursantlar ölkənin tarixi abidələrini də ziyarət ediblər.



Azərbaycan müdafiə naziri Slovakiyanın nümayəndə heyətini qəbul edib









Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Miroslav Lorincin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Zakir Həsənov Azərbaycan və Slovakiya arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq münasibətlərinin hərbi sahədə əlaqələrin genişləndirilməsinə və möhkəmləndirilməsinə müsbət təsir etdiyini qeyd edib.

Nazir mövcud hərbi əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edərək, bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.



Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general M.Lorinc hərbi əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin zəruriliyini diqqətə çatdırıb.

Baş Qərargahda təşkil edilən rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.



Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Slovakiyanın nümayəndə heyəti ilə görüşüb.

Görüşlərdə hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və müdafiə sahəsində qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında müzakirələr aparılıb.

Hava Döyüş komandanlığında NATO heyəti ilə görüş keçirilib







Hərbi Hava Qüvvələri komandanının müavini - Hava Döyüş komandiri general-mayor Zaur Rüstəmov NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Baş Qərargahının (SHAPE) Tərəfdaşlıq Baş İdarəsinin rəisinin müavini - Hərbi Əməkdaşlıq İdarəsinin rəisi briqada generalı Theodoros Stefou ilə görüşüb.

NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin "Mi-17-1V" tipli helikopter cütlüyünün 2-ci səviyyəli (NEL-2) NATO qiymətləndirilməsi zamanı keçirilən görüşdə Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə birgə həyata keçirilən fəaliyyətlər, bölmələrin hazırlıq səviyyəsi və qarşıya qoyulan tapşırıqlar barədə təqdimatlar verilib.

Bu cür tədbirlərin sülhməramlı əməliyyatlara hazırlıq səviyyəsinin yüksəldilməsi, qarşılıqlı fəaliyyətin gücləndirilməsi və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

Görüşdən sonra təlim sahəsində olan qonaqlar bölmələrin təchizatına baxış keçirərək NATO standartları və tələblərinə uyarlılıq səviyyəsini yoxlayıblar.







Ali Baş Komandan İlham Əliyev və tarixi Zəfərə aparan yol

(Əvvəli 1-ci səhifədə)

Eyni zamanda, ölkənin iqtisadi imkanlarının genişləndirilməsi müdafiə sahəsinə daha çox vəsait ayrılmasına şərait yaratdı.

Güclü ordu yalnız silah və texnika ilə ölçülmür. Müasir döyüş şəraitində hərbi qulluqçuların hazırlığı, komandirlərin peşəkarlığı, düzgün idarəetmə, kəşfiyyat məlumatlarının əldə olunması və müxtəlif qoşun növlərinin uzlaşdırılmış fəaliyyəti də böyük əhəmiyyət daşıyır. Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi döyüş qabiliyyəti bu istiqamətlərdə görülən işlərin nəticələrini göstərdi.

Azərbaycan Ordusu döyüşlər zamanı müasir hərbi texnologiyalardan, pilotsuz uçuş aparatlarından və dəqiq zərbə vasitələrindən səmərəli istifadə etdi. Bununla yanaşı, çətin relyef şəraitində döyüşən hərbçilərimizin şəxsi şücaəti, çevikliyi və peşəkarlığı əməliyyatların uğurla həyata keçirilməsində mühüm rol oynadı.

Prezident İlham Əliyev 2025-ci il noyabrın 8-də Zəfərin beşinci ildönümünə həsr olunmuş hərbi paraddakı çıxışında qələbəyə aparan amillərdən danışarkən güclü ordunun yaradılmasını, müasir silahlarla təchizatı, iqtisadi inkişafı, vətənpərvər gəncliyin yetişdirilməsini və xalqın birliyini xüsusi vurğulamışdı. Bu fikirlər qələbənin bir gündə deyil, uzun illər ərzində formalaşmış imkanlar hesabına əldə edildiyini göstərir.

Deməli, İkinci Qarabağ müharibəsinin uğurunu anlamaq üçün yalnız 2020-ci ilin sentyabrına nəzər salmaq kifayət deyil. Bu uğurun təməlində illərlə davam edən dövlət quruculuğu və müdafiə hazırlığı dayanırdı.

Münaqişənin sülh yolu ilə həlli üçün uzun illər danışıqlar aparılsa da, işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində nəticə əldə olunmamışdı. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq öz ərazi bütövlüyünün bərpasını tələb edirdi. Lakin danışıqlar prosesinin nəticəsiz qalması, Ermənistan rəhbərliyinin mövqeyi və cəbhədə baş verən gərginlik vəziyyəti daha da mürəkkəbləşdirirdi.

İlham Əliyevin siyasi mövqeyinin əsas istiqamətlərindən biri Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədindən geri çəkilməmək idi. Dövlət başçısı müxtəlif beynəlxalq platformalarda çıxış edərək münaqişənin səbəblərini, Azərbaycanın mövqeyini və işğalın doğurduğu nəticələri dünya ictimaiyyətinin diqqətinə çatdırırdı. Bu fəaliyyət Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz mövqeyini müdafiə etməsi baxımından əhəmiyyətli idi.

Siyasi iradə çətin şəraitdə qəbul edilən qərarların arxasında dayanmaq, müəyyən edilmiş məqsədə doğru ardıcıl addımlar atmaq və məsuliyyəti üzərinə götürmək bacarığıdır. Vətən müharibəsi zamanı bu amil həm hərbi əməliyyatların idarə edilməsində, həm də dövlətin daxili və xarici siyasətində özünü göstərdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan mövqelərinə və yaşayış məntəqələrinə genişmiqyaslı hücumlarından sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Həmin gün Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi, ölkənin müdafiəsi və yaranmış vəziyyətə cavab verilməsi ilə bağlı qərarlar qəbul edildi.

Beləliklə, müharibənin ilk günündən etibarən dövlətin siyasi rəhbərliyi, hərbi idarəetmə sistemi və cəmiyyətin səfərbərliyi vahid məqsədə yönəldi. Qarşıya qoyulan əsas vəzifə işğala son qoymaq və ölkənin ərazi bütövlüyünü bərpa etmək idi.

Ali Baş Komandanın siyasi qərarları döyüş meydanında onları həyata keçirən ordunun hazırlığı və fədakarlığı ilə tamamlanır. Qələbənin əldə olunmasında rəhbərliyin iradəsi ilə hərbi qulluqçuların qəhrəmanlığı bir-birindən ayrılmaz amillər idi.

Müharibə yalnız cəbhədə aparılmır. Belə bir dövrdə xalqın mənəvi vəziyyəti, dövlətə inamı, informasiya əldə etmək imkanı və ümumi məqsəd ətrafında birləşməsi də böyük əhəmiyyət daşıyır. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi zamanı birlik və həmrəylik nümayiş etdirdi. Cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar ordumuza dəstək göstərir, hərbi qulluqçularımızın uğurlarını böyük ruh yüksəkliyi ilə qarşılayırdılar.



Prezident İlham Əliyevin müharibə günlərində xalqa etdiyi müraciətlər bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı. Dövlət başçısı hərbi əməliyyatların gedişi, azad edilən yaşayış məntəqələri və qarşıda duran vəzifələr barədə məlumat verir, insanları səbirli olmağa və birliyə çağırırdı.

2020-ci il sentyabrın 27-də xalqa ilk müraciətində Prezident İlham Əliyev demişdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Prezidentin rəsmi internet səhifəsində dərc edilən həmin müraciətdəki bu sözlər müharibə dövrünün əsas şüarlarından birinə çevrildi. Onlar cəmiyyətin qələbəyə olan inamını ifadə edir, ölkənin qarşısında duran məqsədi aydın şəkildə ortaya qoyurdu.

Həmin günlərdə insanların diqqəti cəbhədən gələn xəbərlərə yönəlmişdi. Azad edilən hər bir kənd, qəsəbə və şəhər Azərbaycan xalqında yeni ümid yaradırdı. Dövlət başçısının müraciətləri isə bu xəbərlərin rəsmi mənbədən çatdırılması, cəmiyyətin məlumatlandırılması və mənəvi ruhun qorunması baxımından əhəmiyyətli idi.

Müharibə zamanı xalqla rəhbərlik arasında yaranan etimad və birlik hissi qələbənin mənəvi dayaqlarından birinə çevrildi. Bu birlik təkcə siyasi bəyanatlarda deyil, insanların gündəlik həyatında, hərbçilərə göstərilən dəstəkdə və Vətən uğrunda mübarizəyə münasibətdə də özünü göstərirdi.

Ancaq bu mənəvi gücün əsas mənbəyi yalnız çağırışlar deyildi. Onun kökündə uzun illər yaşadılan torpaq həsrəti, şəhidlərin xatirəsi, məcburi köçkünlərin doğma yurda qayıtmaq arzusu və gələcək nəsillərə bütöv ölkə miras qoymaq istəyi dayanırdı. Ali Baş Komandanın müraciətləri həmin ümumi arzunu ifadə edən və onu vahid məqsəd ətrafında birləşdirən mühüm vasitələrdən biri oldu.

Vətən müharibəsi dövründə informasiya mübarizəsi də xüsusi əhəmiyyət daşıyırdı. Hərbi əməliyyatlarla yanaşı, Azərbaycanın mövqeyinin dünya ictimaiyyətinə çatdırılması, yanlış məlumatlara cavab verilməsi və ölkəmizin haqq səsinin beynəlxalq mediada eşidilməsi vacib idi.

Dövlət başçımız İlham Əliyev müharibə günlərində müxtəlif xarici media qurumlarına çoxsaylı müsahibələr verdi. Bu müsahibələrdə Azərbaycanın mövqeyini, münaqişənin tarixini, hərbi əməliyyatların səbəblərini və ölkəmizin ərazi bütövlüyünü bərpa etmək məqsədini izah edirdi.

Xarici jurnalistlərin suallarını cavablandırarkən dövlət başçımızın faktlara əsaslanan arqumentlər gətirməsi, Azərbaycanın mövqeyini müdafiə etməsi və mürəkkəb suallara birbaşa cavab verməsi informasiya mübarizəsinin mühüm tərəflərindən idi. Bu müsahibələr beynəlxalq auditoriyanın diqqətini Qarabağ münaqişəsinin tarixinə və müharibənin səbəblərinə yönəltməyə xidmət edirdi.

2023-cü ildə Çin Media Qrupuna verdiyi müsahibədə Prezidentimiz İlham Əliyev Vətən müharibəsi zamanı əsasən Qərb jurnalistlərinə çoxsaylı müsahibələr verdiyini xatırladaraq həmin görüşlərin bir qisminin kifayət qədər çətin keçdiyini bildirmişdi. O, Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizə apardığını və başqa dövlətin ərazisinə daxil olmadığını vurğulamışdı.

Bu fakt göstərir ki, informasiya cəbhəsində mübarizə yalnız çıxışlarla məhdudlaşmırdı. Azərbaycan rəhbərliyi beynəlxalq auditoriyaya ölkənin mövqeyini izah etməli, müxtəlif suallara cavab verməli və siyasi arqumentlərini müdafiə etməli idi.

Müharibə dövründə rəsmi məlumatların vaxtında yayılması, ictimaiyyətin məlumatlandırılması və dezinformasiyaya qarşı mübarizə də mühüm vəzifələrdən idi. İnformasiya sahəsində ardıcıl fəaliyyət hərbi uğurların beynəlxalq ictimaiyyətə çatdırılmasına və Azərbaycanın mövqeyinin izahına kömək edirdi.

Beləliklə, 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, müasir dövrdə dövlətin gücü yalnız hərbi imkanlarla ölçülmür. Siyasi mövqeyi əsaslandırmaq, informasiya mühitində çevik davranmaq və beynəlxalq ictimaiyyətlə düzgün ünsiyyət qurmaq da mühüm əhəmiyyət daşıyır.

Vətən müharibəsinin ən mühüm hadisələrindən biri 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi oldu. Azərbaycanın mədəniyyət paytaxtı sayılan bu şəhərin tarixi, mənəvi və strateji əhəmiyyəti çox böyük idi. Şuşanın azad olunması müharibənin gedişində həlledici mərhələ yaratdı.

Şuşa əməliyyatı Azərbaycan hərbi qulluqçusunun yüksək peşəkarlığını, cəsarətini və döyüş əzmini nümayiş etdirdi. Şəhərin mürəkkəb dağlıq relyefi, sıldırım qayalar və çətin keçidlər hərbi əməliyyatları son dərəcə mürəkkəbləşdirirdi. Buna baxmayaraq, Azərbaycan hərbçiləri ağır şəraitdə qarşıya qoyulan tapşırığı yerinə yetirdilər.

Şuşanın azad edilməsi təkcə hərbi qələbə deyildi. Bu hadisə uzun illər doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan insanların ümidlərini gerçəkləşdirən, xalqın mənəvi gücünü artıran tarixi dönüş nöqtəsi idi.

Noyabrın 8-də Şəhidlər xiyabanında xalqa müraciət edən Prezident İlham Əliyev böyük qürur hissi ilə bildirdi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Bu sözlər Şuşanın azad edilməsi xəbərini bütün ölkəyə çatdırdı. Prezident həmin müraciətində Qələbənin döyüş meydanında əldə olunduğunu xüsusi vurğuladı. Şuşanın azad edilməsi Azərbaycan Ordusunun döyüş əzminin, peşəkarlığının və hərbi əməliyyatların uğurlu nəticəsinin təcəssümü oldu.

Şuşa uğrunda döyüşlərdə iştirak edən hərbçilərin qəhrəmanlığı Zəfər salnaməsinin ən parlaq səhifələrindən biridir. Bu uğur Ali Baş Komandanın rəhbərliyi altında həyata keçirilən hərbi əməliyyatların, komandirlərin düzgün qərarlarının və əsgərlərin fədakarlığının birgə nəticəsi idi.

Şuşanın azad edilməsi müharibənin sonrakı gedişinə də ciddi təsir göstərdi. Ertəsi gün, noyabrın 9-da daha çox yaşayış məntəqəsinin azad edilməsi barədə məlumatlar yayıldı. Noyabrın 10-da isə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanata əsasən, həmin gün saat 00:00-dan etibarən hərbi əməliyyatların dayandırılması elan olundu.

Beləliklə, 44 günlük Vətən müharibəsi Azərbaycan üçün tarixi Qələbə ilə nəticələndi. Noyabrın 8-i isə Şuşanın azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq Zəfər Günü kimi təsis edildi.

Şəhidlərimiz Vətən uğrunda canlarından keçdilər, qazilərimiz ağır yaralar aldılar, hərbi qulluqçularımız çətin döyüş tapşırıqlarını yerinə yetirdilər. Onların hər birinin göstərdiyi qəhrəmanlıq Zəfər tariximizin ayrılmaz hissəsidir. Arxa cəbhədə çalışan insanlar, hərbçilərin ailələri, könüllülər və müxtəlif sahələrdə ölkəyə dəstək göstərən vətəndaşlar da bu ümumi mübarizənin iştirakçıları oldular.

Ali Baş Komandan İlham Əliyevin rolu həmin ümumi gücün vahid məqsəd ətrafında səfərbər edilməsində, dövlətin siyasi və hərbi imkanlarının əlaqələndirilməsində və qələbə iradəsinin qorunmasında vacib idi. Buna görə də onun rəhbərliyi ilə qazanılan Zəfəri qiymətləndirərkən həm siyasi qərarların əhəmiyyətini, həm də ordunun qəhrəmanlığını və xalqın birliyini birlikdə nəzərdən keçirmək lazımdır.

Vətən müharibəsinin nəticələri Azərbaycan xalqının öz torpaqlarına qayıtmaq arzusunun nə qədər güclü olduğunu da göstərdi. Uzun illər davam edən həsrət, itkilər və çətinliklər xalqın milli iradəsini sarsıda bilmədi. Əksinə, bu amillər doğma torpaqların azad edilməsi məqsədini daha da gücləndirdi.

Zəfərdən sonra qarşıda yeni vəzifələr yarandı. Azad edilmiş ərazilərin bərpası, yaşayış məntəqələrinin yenidən qurulması, yolların və infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı dövlətin əsas istiqamətlərindən birinə çevrildi. Bu proses Qələbənin yalnız hərbi nəticələrlə məhdudlaşmadığını, onun gələcək nəsillər üçün yeni imkanlar yaratdığını göstərir.

Qələbənin qorunması və onun nəticələrini gələcək nəsillərə ötürmək üçün tarixi yaddaşın yaşadılması da vacibdir. Şəhidlərin xatirəsinə ehtiram, qazilərə diqqət, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və ordunun gücləndirilməsi Zəfərdən doğan məsuliyyətin əsas istiqamətləridir.

44 günlük Vətən müharibəsi Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcı oldu. Bu Qələbə dövlətin hərbi qüdrətini, xalqın milli birliyini və uzun illər qorunan tarixi məqsədə çatmaq əzmini nümayiş etdirdi.

Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və qətiyyəti, ordu quruculuğuna verilən önəm, beynəlxalq platformalarda aparılan fəaliyyət, müharibə dövründə xalqla davamlı ünsiyyət və hərbi əməliyyatların idarə olunması Qələbəyə aparan mühüm amillər sırasında yer aldı. Bununla yanaşı, Zəfərin ən böyük dayağı Vətən uğrunda döyüşən hərbçilərimizin qəhrəmanlığı və Azərbaycan xalqının sarsılmaz birliyi oldu.

Bu gün Zəfər tarixini xatırlamaq yalnız keçmişə nəzər salmaq demək deyil. Bu, həm də qazanılmış uğurun dəyərini anlamaq, şəhidlərimizin xatirəsini yaşatmaq, qazilərimizin fədakarlığını unutmamaq və ölkəmizin gələcəyi üçün məsuliyyət daşımaq deməkdir.

Qələbənin siyasi iradə ilə başlayan yolu əsgər və zabitlərin qəhrəmanlığı ilə tarixə çevrildi. Hər bir azad edilmiş yaşayış məntəqəsi, hər yüksəklikdə dalğalanan üçrəngli bayrağımız və Şuşadan gələn müjdə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq.

44 gün ərzində yazılan bu tarix bir daha göstərdi ki, milli məqsəd ətrafında birləşən xalq, güclü dövlət və peşəkar ordu ən çətin sınaqların öhdəsindən gələ bilər. Zəfərimizin mənası da məhz bundadır: Vətən sevgisi, qətiyyət və birlik tarix yazmaq gücünə malikdir.

Hüsniyyə NƏSİROVA
"Azərbaycan Ordusu"

Zəfər Muzeyi xalqımızın sarsılmaz iradəsinin və milli birliyinin rəmzidir





(Əvvəli 1-ci səhifədə)

Səkkiz sərgi zalında ziyarətçilərə Qarabağ və Şərqi Zəngəzurun qədim tarixi, zəngin mədəniyyəti, onun əsrlər boyu qopa və yenidənqurma işləri muzeyin mövzu ekspozisiya planına daxil edilərək xüsusi tərtibatda ziyarətçilərə nümayiş olunur.

Xalqımız üçün səkkiz rəqəmi xüsusi məna daşıyır. Otuz ilə yadım - Zəfər Muzeyindən yazı hazırlamaq məqsədilə muzeyi ziyarətə gəlmişik. Muzeyə yaxınlaşarkən "Qarabağ Azərbaycandır!" yazılmış lövhənin qarşısında bir anlıq dayanırıq. Gözlərimiz önündən altı il öncə məğrur xalqımızın 44 gündə düşmənlə savaşda haqqın, ədalətin bərpası üçün apardığı mübarizələr, döyüş meydanında göstərdiyi qəhrəmanlıqlar, fədakarlıqlar kinolenti kimi gəlib keçir. Muzeyin önündə qalib dövlətin Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin fotosunun geniş və möhtəşəmliklə əks olunduğunu görürük. Divara həkk edilən Vətən fədailərinin adlarını oxuduqca daxilimizdə qürur və kədər hissləri bir-birinə qarışır. Girişdə Vətən müharibəsində Zəfərin qazanılmasının başlıca amili olan, xalq-ordu-dövlət birliyinin təcəssümü, parlaq qələbəmizin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışından fikirlər xüsusi yer alıb.

"Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış" adlanan növbəti zal Qarabağ münaqişəsinin ağrılı, lakin unudulmaz səhifələrini özündə yaşadır. Zaldakı eksponatları izlədikcə əzəli və Böyük ekranda qaçqın və məcburi köçkünlər, Xocalı soyqırımı və mina qurbanları, eləcə də işğal dövründə dağıdılmış abidələr, məscidlər və milli irsə vurulan ziyan haqqında geniş məlu-








runub yaşadılan milli irsi, Ermənistanla münaqişənin tarixi kökləri və onun xronoloji ardıcıllığı təqdim olunur. Muzeyin ekspozisiya quruluşunda 44 günlük Vətən müharibəsinin şanlı salnaməsi, 8 noyabrda Şuşanın azad olunması ilə Azərbaycanın çoxdan gözlənilən Qələbəsi xüsusi yer alaraq, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam təmin olunması barədə məlumatlar təqdim edilir. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri muzeyin mövzu ekspozisiya planına daxil edilərək xüsusi tərtibatda ziyarətçilərə nümayiş olunur.



Xalqımız üçün səkkiz rəqəmi xüsusi məna daşıyır. Otuz ilə yaxın davam edən işğalın başa çatdığı, miflərin, "yenilməz ordunun" darmadağın edildiyi və qəhrəmanlığın simvolu olan 8 rəqəmi... 8 Noyabr metrostansiyası, 8 Noyabr prospekti, Zəfər parkındakı 8 Noyabr memorial abidəsi və nəhayət, 8 zaldan ibarət Zəfər muzeyi... Muzeyin açılışı da elə ötən il noyabrın 8-də 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərimizin beşinci ildönümündə oldu.

Tarixi Vətənə qovuşduran 8 adMuzeyin ekspozisiya zalları ilə tanışlığımız başlayır. "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi" adlanan ilk zal ziyarətçini həmin torpaqların çal-çağırlı vaxtlarına aparır. Zalın divarlarındakı barelyeflər bölgənin qədim tarixi abidələrini əks etdirir, videomateriallar isə Qarabağın memarlıq irsindən və çoxəsrlik tarixindən bəhs edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə divardakı kitab instalyasiyasında xüsusi yer ayrılıb. Mərkəzdəki interaktiv kitablar Qarabağın təbiətini, ədəbi irsini, musiqisini və xalq sənətlərini kəşf etməyə imkan yaradır. Zalın sonundakı ekranlar Qarabağın dövlətçilik, hərb, ədəbiyyat və incəsənət sahələrində iz qoymuş görkəmli şəxsiyyətlərin həyatını daha yaxından tanımağa şərait yaradır. Bu məkan Qarabağın keçmişi, bu günü və gələcəyə daşıdığı ruhu birləşdirən yaddaş simvoluna çevrilir.

əbədi torpaqlarımızın başının üstünü alan qara buludlar, anidən çökən qaranlıq, üzlərdə donan




mat təqdim olunur. Zalda münaqişənin tarixi kökləri, xronologiyası, eyni zamanda, Ulu Öndə-

zisiya quruluşunda 44 günlük Vətən müharibəsinin şanlı salnaməsi, 8 noyabrda Şuşanın azad olunması ilə Azərbaycanın çoxdan gözlənilən Qələbəsi xüsusi yer alaraq, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam təmin olunması barədə məlumatlar təqdim edilir. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərtəbəssüm göz önünə gəlir. Lakin o günlərin qayıdacağına ümid verən bir işıq da sezilir…

Burada diqqət çəkən məqamlardan biri də zalın mərkəzində yerləşən Qarabağda işğal dövründə dağıdılmış binaların taleyinə həsr olunan kompozisiyadır. Ağdamdan gətirilmiş daşlardan yaradılan bu əsər həyatın yenidən dirçəlişini simvolizə edir.

rin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə məlumatlar yer alıb. Burada Ermənistan tərəfindən törədilmiş terror aktları və müharibənin ağır nəticələrinə dair faktlar da əksini geniş tapıb.

(Ardı 5-ci səhifədə)







Zəfər Muzeyi xalqımızın sarsılmaz iradəsinin və milli birliyinin rəmzidir



(Əvvəli 4-cü səhifədə)

Muzeyin üçüncü "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı" zalı Vətən müharibəsinə həsr olunub. Zalın mərkəzində LED monolitlər süni intellektlə hazırlanmış videomateriallarla ziyarətçi üçün döyüş atmosferi yaradır. Həmin hissədə quraşdırılmış 5 vertikal monitorda döyüş əməliyyatları, hərbi uğurlar və mülki əhaliyə qarşı hücumlarla bağlı materiallar təqdim olunur. İnteraktiv monitorlar vasitəsilə ziyarətçilər 44 gün ərzində baş vermiş bütün önəmli hadisələri, eləcə də dövlət başçısının xalqa və mətbuata müraciətlərini izləyə bilərlər. Holoqrafik ekranlar müasir hərbi texnikanı və əsgərlərin avadanlıqlarını 3D formatda nümayiş etdirir, mərkəzdəki interaktiv xəritələr isə azad olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların mərhələlərini ardıcıllıqla canlandırır.

Zalda tarixi Qələbənin qazanılmasında müstəsna xidmətləri olan rəşadətli Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları, eyni zamanda, Silahlı Qüvvələrin xüsusi təyinatlılarının maketləri nümayiş olunur. Burada Prezident İlham Əliyev tərəfindən 44 günlük Vətən müharibəsi və Zəfər Günü ilə bağlı qəbul edilmiş bir sıra fərman və sərəncamlar sərgilənir.

"Şanlı Zəfər. Şuşanın azad olunması" zalı mistik gücə malikdir. Vətən müharibəsinin unikal məqamları, qəhrəmanların şəhid və yaralı döyüş yoldaşlarını çiyninə alaraq yalın əllə sıldırım qayalara dırmaşdıqları Şuşa əməliyyatı göz önünə sərilir.

Zalın mərkəzindəki Şuşa maketi sanki döyüş meydanını xatırladır, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan yaradır. Digər monitor şəhərin müharibə dövründə və bərpadan sonra olan görüntülərini təqdim edir. Böyük ekranda şanlı Zəfər yolunun emosional gedişi nümayiş olunur. Bu zal Şuşanın azadlığını, Azərbaycan Ordusunun rəşadətini və qəhrəmanlığını əks etdirir.

"Qəhrəmanlar yolu" adlı zalda böyük monitorda Qarabağın gün batımı fonunda döyüşçülərin qürurla irəlilədikləri anlar təsvir olunur. Burada Vətən müharibəsi qəhrəmanlarına təqdim olunan orden və medallar nümayiş edilir. Həmin zal ziyarətçiləri xalqın birliyi və qələbə sevincinin simvolu zə edildiyi növbəti zala aparan dəhliz rolunu oynayır.

Muzeyin altıncı "Qarabağ Azərbaycandır!" zalına daxil olarkən altı il əvvəl baş verənlər - üçrəngli bayraqları başı üzərinə qaldıraraq küçələrə axışan sakinlərin Qələbə sevinci, onların bir-birini qucaqlayaraq təbrik etməsi, ərşə ucalan dualar, alqışlar, şəhidlər üçün axıdılan göz yaşları - bir film fraqmenti kimi yada düşür.

Zalın mərkəzində Murano şüşəsindən hazırlanmış Şanlı Zəfərin və Qarabağın dirçəlişinin simvoluna çevrilmiş Xarıbülbül çiçəyinin instalyasiyası yerləşir. Parlaq işıqlar və rənglər bayram abhavası bəxş edir, vizual effektlər sevinc və qürur hissini gücləndirir. Böyük ekranlarda 30 illik həsrətə son qoyan Zəfər sevincinin səhnələri nümayiş olunur.









"Dövlət suverenliyinin bərpası. 20.09.2023" zalı isə izləyiciləri Vətən müharibəsinin məntiqi davamı olan antiterror əməliyyatına aparır. Azərbaycan Ordusunun bölmələri qarşısında 24 saat tab gətirməyərək ağ bayraq qaldıran Ermənistan ordusunun tör-töküntülərinin biabırçı məğlubiyyəti, Azərbaycanın dövlət suverenliyinin tam bərpasını və müasir tarixindəki əsas qələbələr təqdim edilir. Monitorlar vasitəsilə Vətən müharibəsindən əvvəl və Zəfər günündən sonra şəhid olanların əziz ruhuna ehtiram ifadə olunur.

Muzeyin sonuncu "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş" zalı isə işğal edilmiş ərazilərin bərpasına və inkişafına həsr olunub. Zalın mərkəzindəki instalyasiya şəhid övladlarının səsi ilə Qarabağın gələcəyi üçün ümid dolu mesajlar verir. Üç işıqlı keçid bərpa, ekoturizm və inkişafla əlaqədar görüləcək işlərdən soraq verir. Hər keçiddə mədəniyyət, təhsil və infrastruktur layihələrinin maketləri təqdim olunur, interaktiv ekranlarda bərpa layihələri nümayiş edilir.

Ekspozisiya zalının çıxışında qonaqlar üçün xatirə kitabı yerləşdirilib. Həmçinin "Danışan fotolar" adlı bölmədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin fotoşəkilləri var.

Muzeydə, eyni zamanda, Auditorium zalı, kitabxana və kafe yaradılıb. Auditorium zalında seminar və konfransların, müxtəlif ictimai tədbirlərin təşkili nəzərdə tutulur. Muzeyin kitabxanasında Azərbaycan tarixinə, milli-mənəvi dəyərlərimizə, mədəni irsinə, artıq keçmişdə qalan Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də Qarabağın bərpasına və inkişafına dair kitablar, araşdırma materialları təqdim olunur. Burada, həmçinin Azərbaycan tarixini və mədəniyyətini özündə əks etdirən suvenirlərin satıldığı kiçik satış məntəqəsi də fəaliyyət göstərir.

Azərbaycanın hərb tarixini və milli-mənəvi dəyərlərini özündə qürurla yaşadan Zəfər Muzeyi zəngin ekspozisiyası ilə şanlı Qələbəmizi təbliğ edir, dünyada tanıdır.

Tarixi Vətənə qovuşduran 8 addım - Zəfər Muzeyi xalqımızın sarsılmaz iradəsinin və milli birliyinin rəmzidir. Muzeyə gələn hər bir ziyarətçi Azərbaycanın tarixi ədaləti və xalqımızın haqq işi uğrunda mübarizəsinin və parlaq Qələbənin əzəmətini hiss edir, qürurunu yaşayır...

Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Gənc zabitlərimiz

Peşəkarlıq onun bilik və bacarığındadır

Hər bir insan öz gələcəyini bildiyi və bacardığı sahədə görür. Kapitan Məhəbbət Rzayev orta məktəbi bitirəndən sonra ali məktəbə qəbul olub. Texniki fənləri yaxşı mənimsədiyi üçün nəqliyyat sahəsində özünü sınamaq istəyib. Elə həmin il də Azərbaycan Texniki Universitetinə "Nəqliyyatda daşınma və idarə edilmənin təşkili" ixtisasına qəbul olub. Məhəbbət universiteti bitirəndən sonra avtomobil istismarı sahəsində çalışmaq istəyib. Ancaq onun qarşısında Vətənə hərbi xidmət borcu dayanırdı. İstəyirdi ki, hərbi xidməti başa vurandan sonra işə başlasın.

Məhəbbət Rzayev 2016-cı ildə universiteti bitirib. Həmin il də onu hərbi xidmətə çağırıblar. O zaman düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdən birində səngərdə xidmət edib. Hərbidə nəqliyyatsız xidmətin mümkünsüzlüyünü görüb. Tərxis olunandan sonra yenidən ordu sıralarına qayıdacağı barədə düşünüb. Hərbi xidməti tamam olandan sonra Məhəbbət Vətənə xidməti borcunu ləyaqətlə yerinə yetirib doğmalarının yanına qayıdıb. Valideynlərinə bildirib ki, yenidən ordu sıralarına qayıtmaq istəyir. Əsgərlikdə olanda komandirlərindən öyrənib ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit hazırlığı kursu" açılacaq. Həmin kursu oxuyub zabit kimi xidmətə davam edə bilər. Valideynləri də onun arzusuna qarşı çıxmadılar. Ona xeyir-dua verib, gələcək həyatında uğurlar diləyiblər.

Kapitan Məhəbbət Səfiyar oğlu Rzayev Cəlilabad rayonunun Noftulu kəndində anadan olub. 2018-ci ilin martında Təlim və Tədris Mərkəzini bitirib. "Leytenant" hərbi rütbəsində ixtisası üzrə xidmətə başlayıb. Avtomobil xidmət rəisi vəzifəsi onun üçün ilk baxışdan çətin görünsə də, deyir ki, xidmətə başlayandan sonra vəzifəsindən irəli gələn bütün tələbləri dərindən öyrənib. Gənc zabit üçün avtomobil xidməti tanış sahə olduğu üçün qısa zamanda üzləşdiyi bütün çətinliklərin öhdəsindən gəlib. İkinci Qarabağ müharibəsi başlayanda Məhəbbət artıq öz işinin peşəkarı idi. O, xidmətində olan bütün avtomobilləri çıxışa tam hazır vəziyyətə gətirmişdi. Müharibədən əvvəlki dövrü belə xatırlayır: - Vəzifəmi qəbul edəndə çatışmazlıqlar var idi. Qarşıma məqsəd qoydum ki, qısa zamanda bütün nöqsanları aradan qaldıracağam. Gecə-gündüz avtomobil parkında oldum. Sürücülər və təmir briqadası ilə bütün avtomobillərin sazlığını yoxladım. Nasazlıqlarını qeyd edib qısa müddətdə aradan qaldırdım. Avtomobil parkında peşəkar sürücülər və təmirçilər çalışırdılar. Onları müntəzəm xidmətə cəlb etdim. Onun nəticəsi idi ki, döyüş başlayanda bütün avtomobillər cəbhəyə, göstərilən məntəqəyə deyilən vaxtda çatdı.



Kapitan Məhəbbət Rzayev 2020-ci ilin 27 sentyabrında, müharibənin ilk günü Füzuli-Xocavənd-Cəbrayıl istiqamətlərində döyüşən bölmələrə nəzərdə tutulan təminatları çatdırıb. 44 gün davam edən müharibədə Məhəbbət üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlib. Döyüş zamanı birliyin tərkibində avtomobil texnikalarının təminatını, təxliyəsini təşkil edib. Səfərbərlikdən gələn texnikaları qəbul edərək ehtiyac yaranan döyüş nöqtələrinə çatdırıb. Onun xidmətləri yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Müharibədən sonra Məhəbbət Rzayev Laçın-Kəlbəcər istiqamətində xidmətini davam etdirib. Həmin illərdə də üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışıb. Məhəbbətin xidmətindən komandanlıq razılığını bildirir. Tabeliyində olan şəxsi heyətin qayğısına qalmaqla işini yüksək səviyyədə qurub. Onun bu cür çalışqanlığı, işinə məsuliyyətli yanaşması bilik və bacarığından irəli gəlir. Məhəbbətin məsuliyyətli olması onun gələcəkdə daha böyük uğurlar əldə edəcəyinə inamı artırır.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"

Azərbaycan-BƏƏ Birgə Hərbi Əməkdaşlıq Komitəsinin ikinci iclası keçirilib



Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Müdafiə nazirlikləri arasında Birgə Hərbi Əməkdaşlıq Komitəsinin ikinci iclası keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, iclas çərçivəsində Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Elçin Abdullayev Birləşmiş Ərəb Əmirlikləri Müdafiə Nazirliyinin Beynəlxalq İşlər Direktorluğunun direktoru briqada generalı Jamal Ebrahim Mohamed Almarzooqinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tədbirdə ordularımız arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib, hərbi əməkdaşlığın cari vəziyyəti və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Yekunda Azərbaycan Respublikası və BƏƏ Müdafiə nazirlikləri arasında Birgə Hərbi Əməkdaşlıq Komitəsinin ikinci iclasının Protokolu və 2027-2029-cu illər üçün əməkdaşlığa dair "Yol Xəritəsi" imzalanıb.



Zəfərdən doğan qürur, gələcəyə yönələn inam

Azərbaycan xalqının tarixində qazanılan qələbələr var ki, onların əhəmiyyəti dövlətin qüdrətini, xalqın iradəsini, milli birliyin sarsılmazlığını və gələcəyə inamını təcəssüm etdirdi.



2020-ci ilin Vətən müharibəsində qazanılmış tarixi Zəfər də Azərbaycan tarixinin məhz belə möhtəşəm səhifələrindəndir. Bu Qələbə uzun illər davam edən işğala son qoymaqla yanaşı, xalqımızın milli qürurunu özünə qaytardı, dövlətimizin beynəlxalq mövqelərini daha da möhkəmləndirdi və Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi.

Tarixi Zəfərimizin 6-cı ildönümünə yaxınlaşdığımız bu günlərdə keçilən yola nəzər salmaq, Qələbəyə aparan prosesləri dəyərləndirmək və bu uğurun təməlində dayanan amilləri xatırlamaq xüsusi əhəmiyyət daşıyır. Çünki bu Zəfər bir gündə qazanılmadı. Onun əsasında dövlətçilik ənənələrinə sədaqət, məqsədyönlü ordu quruculuğu, güclü iqtisadiyyat, milli həmrəylik və Azərbaycan xalqının haqq işinə olan sarsılmaz inamı dayanırdı.

Müstəqil Azərbaycanın müdafiə qüdrətinin formalaşması və möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dövlət müstəqilliyinin ilk illərində ölkəmizin üzləşdiyi ağır sınaqlar, Ermənistanın hərbi təcavüzü və nizami ordunun formalaşdırılması zərurəti qarşıya təxirəsalınmaz vəzifələr qoymuşdu. Belə mürəkkəb şəraitdə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı dövlətçiliyin qorunması, idarəetmədə sabitliyin yaradılması və milli ordunun möhkəm təməllər üzərində qurulması baxımından həlledici rol oynadı.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğunu dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Belə ki, Silahlı Qüvvələrdə vahid komandanlığın möhkəmləndirilməsi, hərbi intizamın gücləndirilməsi, peşəkar hərbi kadrların hazırlanması və ordunun dövlətə sədaqət ruhunda formalaşdırılması istiqamətində mühüm islahatlar həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti təsdiqləyir ki, müstəqil dövlətin təhlükəsizliyi güclü müdafiə sistemi və xalqın öz ordusuna inamı ilə təmin edilə bilər.

Dahi şəxsiyyət Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik xətti sonrakı illərdə Azərbaycan Ordusunun inkişafı üçün möhkəm zəmin yaratdı. Bu siyasi irs Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun şəkildə davam etdirildi. Dövlət başçısının rəhbərliyi ilə ölkənin iqtisadi imkanlarının artırılması, müdafiə sənayesinin inkişafı, müasir silah və texnikanın alınması, hərbi infrastrukturun yenilənməsi və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində zəruri islahatlar həyata keçirildi.

Azərbaycan Ordusunun müasirləşdirilməsi təkcə silahlanma ilə məhdudlaşmadı. Döyüş hazırlığının təkmilləşdirilməsi, hərbi qulluqçuların peşəkarlığının artırılması, müasir texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi ordunun keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə imkan verdi. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi strateji məqsədə xidmət edirdi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, ordunun döyüş qabiliyyətinin yüksəldilməsi və xalq-ordu birliyi 2020-ci ildə tarixi sınaq qarşısında öz bəhrəsini verdi. Həmin il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycan xalqının onilliklər boyu qəlbində yaşatdığı haqq-ədalət arzusunun həyata keçməsi yolunda dönüş nöqtəsinə çevrildi.

44 gün davam edən müharibə Azərbaycan Ordusunun yüksək döyüş ruhunu, peşəkarlığını, cəsarətini və Vətənə bağlılığını nümayiş etdirdi. Döyüş meydanında əldə olunan hərbi uğurlar heç də təsadüfi deyildi. Bu qələbələr illərlə aparılan ordu quruculuğunun, düzgün strateji planlaşdırmanın, müasir hərbi imkanlardan səmərəli istifadənin və hər bir hərbi qulluqçunun üzərinə düşən tapşırığı məsuliyyətlə yerinə yetirməsinin nəticəsi idi.

Vətən müharibəsində Azərbaycan Ordusu bir-birinin ardınca mühüm yaşayış məntəqələrini və strateji yüksəklikləri azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərlərinin, eləcə də digər yaşayış məntəqələrinin işğaldan azad olunması qələbəyə aparan yolun mühüm mərhələləri oldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi isə müharibənin taleyinə həlledici təsir göstərdi. Mədəniyyət paytaxtımızın azadlığı Azərbaycan xalqının iradəsinin, qəhrəman şəhidlərimizin şücaətini və Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin parlaq təcəssümü idi.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat hərbi əməliyyatların dayandırılmasını və regionda sülhün, sabitliyin bərpasını təmin etdi. Xalqımız mərd oğulların sayəsində tarixi ədalətin bərpasına nail oldu. Bu tarixi Zəfərin ən böyük qəhrəmanları torpaqlarımız uğrunda canından keçən şəhidlərimiz və döyüşdə yaralanan igid oğullarımız oldu. Onların Vətən uğrunda göstərdikləri qəhrəmanlıq gələcək nəsillər üçün əsl vətənpərvərlik məktəbidir. Döyüşlər zamanı yaralananların həyat yolu isə möhkəm iradənin, dözümün və torpağa bağlılığın ən bariz nümunəsidir. Bu gün azad edilmiş ərazilərdə həyatın yenidən qurulması, insanların doğma yurd-yuvalarına qayıtması məhz igid oğullarımızın göstərdikləri qəhrəmanlığın nəticəsidir. Bununla belə, Azərbaycanın tarixi Zəfəri ölkə qarşısında duran vəzifələrin yalnız bir mərhələsinin başa çatması demək idi. Dövlət suverenliyinin tam təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər də ölkəmizin təhlükəsizlik siyasətinin mühüm tərkib hissəsi oldu.

2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu. Bununla da konstitusiya quruluşunun ölkənin bütün ərazisində təmin edilməsi istiqamətində yeni mərhələ başladı.

Bu tarixi hadisə Azərbaycanın dövlətçilik salnaməsində mühüm yer tutdu. Ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası xalqımızın çoxəsrlik dövlətçilik arzularının reallaşmasının, milli birliyimizin və qətiyyətimizin təntənəsi oldu. Qarabağda üçrəngli Dövlət Bayrağının dalğalanması Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin ölkənin bütün ərazisində təmin edilməsi ilə yeni reallığın yarandığını nümayiş etdirdi. Bu tarixi nəticənin arxasında xalqımızın möhkəm iradəsi, şəhidlərimizin müqəddəs qanı və Azərbaycan Ordusunun qəhrəmanlığı dayanır.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpaquruculuq işləri tarixi Zəfərimizin davamı kimi özünü büruzə verir. Belə ki, infrastrukturun bərpası istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Həyata keçirilən məqsədyönlü tədbirlər keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı dövlətimizin qarşıya qoyduğu məqsədlərin ardıcıl şəkildə həyata keçirildiyini nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə Böyük Qayıdışa dair I Dövlət Proqramı təsdiq edilmişdir. Bu Proqram həm keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması, həm də işğaldan azad edilmiş ərazilərdə həyatın, iqtisadiyyatın və sosial sahələrin yenidən canlandırılması üçün nəzərdə tutulub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin əsas istiqamətlərindən biri də Azərbaycanın müdafiə qüdrətinin daim gücləndirilməsidir. Çünki əldə olunmuş nailiyyətlərin qorunması, sərhədlərimizin etibarlı müdafiəsi və regionda davamlı sülhün təmin olunması güclü ordunun olmasını tələb edir. Müasir dövrün təhlükəsizlik çağırışları Azərbaycan Ordusunun texnoloji imkanlarının genişləndirilməsini, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasını, çevik idarəetmə sistemlərinin inkişaf etdirilməsini zəruri edir.

Bu gün Azərbaycan Ordusu müstəqil dövlətimizin təhlükəsizliyinin etibarlı təminatçısı, xalqımızın qürur mənbəyidir. Ordumuzun gücü həm müasir silah və texnika, həm də şəxsi heyətin mənəvi-psixoloji hazırlığında, hərbi nizam-intizamında, Vətənə sədaqətində və qarşıya qoyulan tapşırıqları yerinə yetirmək əzmindədir. Vətənin keşiyində duran xalqımızın mərd oğulları bilirlər ki, onların qoruduğu torpaq xalqımızın tarixi, dövlətimizin gələcəyi və şəhidlərimizin bizə əmanət etdiyi müqəddəs Vətəndir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik və ordu quruculuğu siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın tarixi nailiyyətlərinin təməlində dayanan mühüm amillərdəndir. Bu gün Zəfər tariximizə yalnız keçmişin böyük hadisəsi kimi baxmırıq. Bu Zəfər həm də gələcəkdə müstəqilliyimizin qorunması, ordumuzun daha da gücləndirilməsi və azad edilmiş torpaqlarımızda həyatın yenidən dirçəlməsi üçün zəmin yaratdı. Hər bir vətəndaş bu böyük Qələbənin məsuliyyətini dərk etməli və dövlətinə sədaqətlə xidmət etməlidir.

Zəfərdən doğan qürur xalqımızın mənəvi gücünü artırır, gələcəyə yönələn inamımızı daha da möhkəmləndirir. Xalqımız hər an rəşadətli Azərbaycan Ordusuna güvənərək qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Hərb tariximizin qızıl səhifəsinə yazılmış tarixi Zəfərimiz gələcək nəsillərə bir həqiqəti ötürür. Bu həqiqət - milli birlik, xalqın möhkəm iradəsi, Vətən sevgisi, Azərbaycan Ordusunun şücaəti və ən ümdəsi Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətidir. Yalnız bu məfhumların vəhdəti xalqımıza tarixi Zəfəri qazandırdı.

Kifayət ƏLİYEVA
"Azərbaycan Ordusu"

Azərbaycan və Belarus: Hərbi-texniki tərəfdaşlıqdan gələcəyin birgə texnologiyalarına

Müasir münaqişələr təkcə döyüş əməliyyatlarının xarakterini deyil, müdafiə anlayışının özünü də dəyişir. Pilotsuz uçuş aparatları, radioelektron mübarizə vasitələri, eləcə də yüksək texnologiyalı aşkarlama və məhvetmə sistemləri hərbi qarşıdurmanın əsas elementlərinə çevrilir. Bu isə dövlətləri kritik infrastrukturun qorunmasına yanaşmalarını yenidən nəzərdən keçirməyə vadar edir. Belə şəraitdə yeni texnoloji kəşflərin və praktiki döyüş təcrübəsinin birləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Azərbaycan və Belarus hərbi-texniki əməkdaşlığın artıq bir neçə mərhələsini keçib və bu əməkdaşlığı daha da inkişaf etdirmək imkanlarına malikdir. Bu, silahların tərəfdaşın ehtiyaclarına uyğunlaşdırılmasından tutmuş perspektivli müdafiə sistemlərinin birgə yaradılmasına qədər geniş sahələri əhatə edə bilər.

Belə əməkdaşlığın hansı istiqamətlərinin daha perspektivli olması barədə hərbi analitik, Belarusun müdafiə və hərbi-sənaye kompleksi məsələləri üzrə aparıcı ekspertlərindən biri Aleksandr Alesinlə söhbət etdik.

- Aleksandr Borisoviç, Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlığı necə xarakterizə edərdiniz? Fikrinizcə, xarici siyasət prioritetləri fərqli olan dövlətlər arasında etimadın qorunması üçün hansı qarşılıqlı fəaliyyət prinsipləri həlledici rol oynayır?

- Hərbi-texniki əməkdaşlıq silah ticarəti anlayışından daha genişdir. Hərbi-texniki əməkdaşlıq, ən azından, ölkələr arasında tərəfdaşlıq münasibətlərinin mövcudluğunu, hər bir tərəfin xarici siyasət kursuna və digər dövlətlərlə müttəfiqlik münasibətlərinə qarşılıqlı hörmət göstərilməsini nəzərdə tutur. Tərəfdaşın narahatlıqlarını, təhdid və təhlükələrə dair qiymətləndirmələrini anlamaq da vacibdir. Azərbaycanla Belarus arasında dövlətlərarası münasibətlərin bu həssas sahəsində qarşılıqlı əlaqələr məhz belə prinsiplər əsasında qurulur.

Üstəlik, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlıq daim inkişaf edir. İlkin



mərhələdə Minsk Bakıya sovet istehsalı olan artıq silah və hərbi texnika ehtiyatlarını satır, Azərbaycan Ordusunun silahlanması üzrə nümunələri modernləşdirirdi. Növbəti mərhələdə isə Belarus tərəfi özünün hazırladığı silah və döyüş texnikasını tədarük etməyə başladı. Bununla yanaşı, Belarus həmin texnikanın bütün istismar dövrü ərzində texniki dəstəyini təmin etməyi, həmçinin Azərbaycan tərəfinin tələblərinə uyğunlaşdırmağı öhdəsinə götürdü. Bu, ilk növbədə, hava hücumundan müdafiə sistemlərinə, radioelektron kəşfiyyat və radioelektron susdurma vasitələrinə aiddir.

Sonrakı mərhələdə Azərbaycan hərbçilərinin istəkləri nəzərə alınmaqla silah sistemlərinin hazırlanması və istehsalına başlanıldı. Bəzi hallarda bu proses Bakı tərəfindən maliyyələşdirilirdi. Bundan əlavə, hərbi və ikili təyinatlı texnikanın bir sıra nümunələrinin yığılması Azərbaycanda da təşkil olundu.

Lakin ölkələrimiz arasında hərbi-texniki əməkdaşlıq birtərəfli xarakter daşımır. Belarusun hərbi-sənaye kompleksi üçün öz məhsullarının döyüş şəraitində istismar təcrübəsi böyük əhəmiyyət kəsb edir. Bu təcrübə Belarus istehsalı olan silah və hərbi texnika sistemlərini təkmilləşdirməyə imkan verir.

- Müasir şəraitdə hərbi və mülki infrastrukturu pilotsuz sistemlərdən, kiberhücumlardan və digər asimmetrik təhdidlərdən qorumaq xüsusi əhəmiyyət kəsb edir. Kritik əhəmiyyətli obyektlərin və hərbi idarəetmə sistemlərinin dayanıqlılığını təmin etmək üçün yanaşmalar necə dəyişməlidir? Azərbaycanla Belarus arasında təcrübə mübadiləsi hansı istiqamətlərdə hər iki tərəfin imkanlarını genişləndirə bilər?

- Rusiya ilə Ukrayna arasında silahlı münaqişənin təcrübəsi göstərir ki, hazırda əsas vəzifə mülki və hərbi infrastruktur obyektlərini pilotsuz uçuş aparatlarının kütləvi hücumlarından qorumaqdır.

Bir çox ekspertin fikrincə, bu problemin həlli müxtəlif məsafə və hündürlükdə fəaliyyət göstərən, çoxqatlı müdafiə quruluşuna malik kompleks antidron sistemlərinin yaradılması ola bilər. Belə sistemlərdə radiotexniki, optik-elektron, akustik aşkarlama və hədəfalma, eləcə də raket, artilleriya və lazerlə məhvetmə vasitələri vahid idarəetmə altında ümumi şəbəkədə birləşdirilməlidir.

Belarus və Azərbaycanın hərbi-sənaye komplekslərinin potensialını və bu sahədə əldə etdikləri nəticələri nəzərə alsaq, ölkələrimizin bu cür sistemləri yaratmaqla yanaşı, onların döyüş şəraitində tətbiqi üçün taktiki üsullar hazırlamaq imkanlarına da malik olduğunu düşünmək üçün bütün əsaslar var. Bundan əlavə, bu komplekslərdən səmərəli istifadəni təmin etmək məqsədilə ali hərbi təhsil müəssisələrində və hazırlıq mərkəzlərində mütəxəssislərin birgə hazırlanması da mümkündür.

- Belarus ənənəvi olaraq hava hücumundan müdafiə vasitələrinin, radioelektron mübarizə sistemlərinin, optik-elektron komplekslərin və idarəetmə sistemlərinin inkişafına böyük diqqət yetirir. Azərbaycanın çoxkomponentli müdafiə sisteminin təşkili sahəsində təcrübəsini nəzərə alsaq, iki ölkə arasında ixtisaslaşmış texniki və təşkilati həllərin mübadiləsi nə dərəcədə perspektivlidir? Bu sahələrdə əməkdaşlıq ayrı-ayrı sistemlərin tədarükü ilə məhdudlaşmayaraq avadanlığın uyğunlaşdırılmasını, birgə texniki dəstəyi və müvafiq mütəxəssislərin hazırlanmasını da əhatə edə bilərmi?

- Məncə, Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlığın növbəti mərhələsi müasir silah nümunələrinin, ilk növbədə isə pilotsuz uçuş aparatlarına qarşı müdafiə vasitələrinin birgə hazırlanması və istehsalı olmalıdır. Söhbət aşkarlama, radioelektron və optik-elektron susdurma vasitələrindən, eləcə də odlu silah sistemlərindən gedir.

Belarusun hərbi-sənaye kompleksinin əldə etdiyi nəticələr Azərbaycan Ordusunun döyüş təcrübəsi ilə birləşdirildikdə, çox yüksək nəticələr verə bilər.

Bundan başqa, məlumdur ki, hərbi zərurət Azərbaycanı döyüş göstəriciləri kifayət qədər yüksək olan bir sıra silah nümunələrini özünün hazırlamasına sövq edib. Bu isə Azərbaycan və Belarusun elmi-tədqiqat institutları və konstruktor büroları əsasında iki ölkənin mütəxəssislərinin səylərini birləşdirmək üçün imkanlar yaradır.

Eyni zamanda, artıq keçmişin yanaşmaları ilə işləmək mümkün deyil. Belə əməkdaşlığın səmərəliliyini əsaslandıran mühüm amillərdən biri də Azərbaycan silah istehsalçılarının dünyanın ən qabaqcıl hərbi-sənaye komplekslərindən birinə malik İsrail və Türkiyə ilə, Belarus mütəxəssislərinin isə Rusiyanın müdafiə sektorunda fəaliyyət göstərən aparıcı konstruktor və müəssisələrlə uzunmüddətli uğurlu əməkdaşlıq təcrübəsidir.

Bu əməkdaşlığın nəticəsi təkcə Azərbaycan və Belarus ordularının ehtiyac duyduğu deyil, həm də dünya silah və hərbi texnika bazarında tələbat olan məhsul ola bilər. Məsələn, dron əleyhinə kompleks müdafiə sistemi belə məhsullardan biridir. Bakı və Minsk bu sistemi hazırlamaq və istehsal etməklə yanaşı, onu konkret alıcılara təqdim etmək, mütəxəssislərə təlim keçmək və bütün istismar müddəti ərzində texniki dəstək göstərmək imkanlarına da malikdir.

Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlığın daha bir mühüm nəticəsi isə hər iki ölkənin müdafiə sənayesi komplekslərinin elmi və istehsal potensialının artması olacaq.

İkinci Dünya müharibəsinin cəsur qadınları

(Əvvəli 1-ci səhifədə)

İkinci Dünya müharibəsi illərində isə qadınlar artıq ordunun bir çox sahələrində görünürdülər. Onlar tibb işçisi, rabitəçi, sürücü, snayper, pulemyotçu, topçu, kəşfiyyatçı və digər vəzifələrdə xidmət edirdilər. Bəziləri təyyarə və tank idarə edir, bəziləri isə birbaşa ön xətdə döyüşürdülər. Ordu sıralarında bir çox xalqların nümayəndəsi bu mübarizədə iştirak edirdi. Onların sırasında Azərbaycan qadınları da yer alırdı.

Müharibənin ilk günlərindən Azərbaycanda cəbhəyə getmək istəyən qadınların sayı artmağa başladı. Mövcud məlumatlara görə müharibə illərində Azərbaycandan cəbhəyə gedən 681 min nəfərin təxminən 10 mini qadın idi. Bundan başqa, respublikada 15 min tibb bacısı və sanitar, 750 rabitəçi və 1500 sürücü hazırlanmışdı. Bu qadınların bir hissəsi birbaşa cəbhədə, digər hissəsi isə yaralıların müalicəsi, rabitə və nəqliyyat kimi mühüm sahələrdə xidmət göstərirdilər.

Azərbaycan qadınlarının müharibədəki fəaliyyəti bununla da bitmirdi. Cəbhəyə gedən kişilərin yerini arxa cəbhədə də qadınlar tuturdular. Onlar zavodlarda, neft mədənlərində, dəmir yollarında və kənd təsərrüfatında işləyirdilər. Bəzən bir qadın eyni vaxtda həm ailəsinin qayğısına qalırdı, həm də cəbhə üçün lazım olan işləri görürdü. Azərbaycan qadınları qələbəyə yalnız silahla deyil, zəhmətləri ilə də töhfə verirdilər.

Azərbaycan qadınlarının arasında xüsusi cəsarəti ilə seçilənlərdən biri də Ziba Qəniyeva idi. 1923-cü ildə Şamaxıda anadan olan Ziba müharibədən əvvəl Moskvada teatr sənəti üzrə təhsil alırdı. Müharibə başlayanda isə təhsilini yarımçıq qoyaraq cəbhəyə getmək qərarına gəldi. Atıcılıq və kəşfiyyat hazırlığı keçərək, Moskva uğrunda döyüşlərdə iştirak etdi.

Ziba Qəniyeva həm snayper, həm də kəşfiyyatçı kimi fəaliyyət göstərirdi. O, düşmən mövqeləri haqqında məlumat toplamaq üçün dəfələrlə ön xətdən keçərək təhlükəli tapşırıqları yerinə yetirirdi. 1942-ci ildə ağır yaralanması onun döyüş yolunu yarımçıq qoydu. Buna baxmayaraq, onun müharibə illərində göstərdiyi cəsarət və fədakarlıq Azərbaycan qadınlarının hərb tarixində xüsusi yer tutdu.

İkinci Dünya müharibəsində döyüşən qəhrəman azərbaycanlı qadınların arasında dənizçilər də var idi. Şövkət Səlimova Azərbaycan tarixində ilk qadın gəmi kapitanı kimi tanınır. Müharibə vaxtı onun idarə etdiyi gəmilər cəbhəyə neft, neft məhsulları, avadanlıq və sursat aparırdı. Eyni zamanda, yaralı əsgərlərin də daşınmasında iştirak edirdi.

Müharibə illərində qadınların həyatında böyük dəyişikliklər baş verdi. Onlar bir gün əvvəl məktəbə gedən, işləyən, ailə ilə yaşayan adi insanlar idilər. Müharibə başlayanda isə həyatlarının istiqaməti dəyişdi. Bəziləri hərbi forma geyindi, bəziləri xəstəxanalarda yaralıların yanında oldu, bəziləri də zavodlarda və neft mədənlərində gecə-gündüz çalışdı.



Bu qadınların həyatlarına baxanda müharibənin yalnız səngərdə baş vermədiyini görürük. Müharibə bəzən xəstəxanada, zavodda, neft mədənində, gəmidə və hətta uzaqlarda qalan ailələrin evində də yaşanırdı. Qadınlar bütün bu yerlərdə öz üzərlərinə düşən işi yerinə yetirirdilər.

Döyüşlərdə iştirak etmiş rus qadınları da xüsusi qəhrəmanlıqlar göstəriblər. Onların döyüş xatirələri isə olduqca maraqlı və eyni zamanda, kədərlidir. Bu xatirələri qısa olaraq təqdim edirik:

"Peşəm kişi saçı düzəltmək idi. Bir gün yanıma qız gəldi, saçları uzun və çox gözəl idi. Ancaq mən onun saçlarını necə kəsəcəyimi bilmirdim. Komandir içəri daxil olaraq "saçlarını kişi kimi kəs" əmrini verdi. Tərəddüd etdim və onun qadın olduğunu vurğuladım. "Yox, o qadın deyil, əsgərdir. Müharibə bitdikdən sonra qadın olacaq", - deyə sərt cavab verdi.

"Qızlarla birgə qatarda gedirdik. Əsgərlər də bizim tüfəng tutmağımıza baxıb gülürdülər. Biz silahları qucağımızda kukla saxlayan kimi tutmuşduq".

"Adamlar qışqırıb ağlayırdılar. Ancaq "müharibə" sözünü eşidirdim. Düşünürdüm ki, sabah institutda imtahandı, nə müharibə? Axı əsas imtahandır".

"Bir gün xərəkdə yaralı əsgər gətirib yerə qoydular. Kimsə əlindən tutub onun öldüyünü bildirdi. Biz isə yavaş-yavaş geri çəkilməyə başladıq. Birdən yaralı köksünü ötürdü. Həkimlər onu silkələyir, naşatır spirti qoxladırdılar. Ancaq o, yenə də bərk-bərk yatırdı. Biz onda bildik ki, o, üç həftədir ki, yatmayıbmış".

"İnsanlar ölümdən qorxur, ölmək istəmirdilər. Bir yaralını çiynimdə aparanda ölümünün yaxın olduğunu hiss edib məni bərk-bərk qucaqladı, sonra əlləri yanına düşdü. Onlar elə bilirdilər ki, ölüm yaxınlaşdıqda əgər tibb bacısını qucaqlasa, ölüm qorxacaq və ondan uzaq duracaq. Bəziləri isə ölüm haqda düşünmək istəmir və ucadan mahnı oxuyurdular".

Böyük Vətən müharibəsi tarixində qadınların adı kişilər qədər çox çəkilmir. Lakin onların gördüyü işlər qələbənin mühüm səhifələrindən biridir. Bu gün onların həyat yolunu xatırlamaq yalnız keçmişə nəzər salmaq deyil. Bu, həm də Vətən qarşısında məsuliyyətin və sədaqətin qadın, kişi cinsinin olmadığını anlamaqdır. Çünki tarixdə elə qəhrəmanlar var ki, əllərində silahdan əvvəl böyük bir iradə daşıyıblar. Azərbaycan qadınlarının müharibə illərindəki fədakarlığı da həmin iradənin ən parlaq nümunələrindən biridir.

Hüsniyyə NƏSİROVA
"Azərbaycan Ordusu"

Asudə vaxt

Şahmat taxtası arxasında düşüncə və taktika



Əsgərin gündəlik həyatı yalnız hərbi təlimlərdən, məşqlərdən və xidməti vəzifələrinin yerinə yetirilməsindən ibarət deyil. Asudə vaxtın düzgün təşkili də onun həyatında mühüm yer tutur. Bu vaxtı maraqlı və faydalı məşğuliyyətlə keçirmək həm əhval-ruhiyyəni yüksəldir, həm də yeni bacarıqların inkişafına kömək edir.

Şahmat taxtası arxasında əyləşən iki əsgər - Dünyamin Məmmədzadə və Seymur Mustafayev asudə vaxtlarını belə dəyərləndirirdilər. Şahmat taxtası arxasında üz-üzə əyləşən əsgərlər hər gediş üzərində düşünür, mümkün variantları nəzərdən keçirir, rəqibin növbəti addımını əvvəlcədən müəyyənləşdirməyə çalışırdılar. Bu oyun onlara həm istirahət etmək, həm də düşünmə bacarıqlarını inkişaf etdirməyə imkan yaradırdı.

Əslən Tərtər rayonunun Qaynaq kəndindən olan Dünyamin Məmmədzadə ali təhsillidir. O, Xəzər Universitetində təhsil alıb, bakalavr və magistr pillələrini bitirib. İxtisası "Klinik psixologiya" olan Dünyamin hərbi xidmətə gəlməzdən əvvəl uşaq psixologiya mərkəzində çalışıb. Peşəsi insanları anlamağı, onların davranışlarını müşahidə etməyi və səbirli olmağı tələb edən gənc üçün şahmat da maraqlı məşğuliyyətdir.

Şahmat oyununda tələsmək düzgün nəticəyə gətirib çıxarmır. Hər bir gedişin nəticəsini düşünmək, yaranan vəziyyəti düzgün qiymətləndirmək və qərar vermək lazımdır. Bu baxımdan şahmat insana diqqətli olmağı, səbir göstərməyi və hadisələrə müxtəlif tərəflərdən yanaşmağı öyrədir. Dünyaminin təhsil aldığı sahədə də bu keyfiyyətlərin əhəmiyyəti böyükdür.

Digər həmsöhbətimiz Seymur Mustafayev isə Goranboy rayonunun Qaradağlı kəndindəndir. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasını bitirən Seymur "Maliyyə" ixtisası üzrə təhsil alıb. Onun da şahmata xüsusi marağı var. Bu maraq yalnız boş vaxtını keçirməkdən ibarət deyil. O, rayonda keçirilən şahmat yarışında ikinci yerə layiq görülüb. Bu nəticə onun oyuna marağının və şahmat bacarığının göstəricisidir.

Seymur üçün hər gedişin əhəmiyyətini anlamaq, düzgün qərar vermək və rəqibin taktikasına uyğun hərəkət etmək deməkdir. Maliyyə sahəsində də diqqət, dəqiqlik və hesablamalar mühüm yer tutur. Şahmat taxtası arxasında isə bu bacarıqlar fərqli şəkildə özünü göstərirdi.

Əsgərlərin şahmat oyunu ilk baxışda sadəcə asudə vaxt məşğuliyyəti kimi görünə bilər. Əslində isə, belə fəaliyyətlər kollektivlə ünsiyyətin möhkəmlənməsinə, yoldaşlıq münasibətlərinin inkişafına və sağlam rəqabət mühitinin yaranmasına kömək edir. Oyunun nəticəsindən asılı olmayaraq hər qarşılaşma yeni təcrübə qazanmaq, səhvləri görmək və növbəti dəfə daha düzgün qərarlar vermək üçün fürsətdir.

Hərbi xidmət zamanı asudə vaxtın səmərəli təşkili əsgərlərin gündəlik həyatına mühüm təsir göstərir. İdmanla məşğul olmaq, kitab oxumaq, intellektual oyunlara vaxt ayırmaq onların həm fiziki, həm də mənəvi inkişafına xidmət edir. Dünyamin Məmmədzadə və Seymur Mustafayevin şahmata marağı bu baxımdan təqdirəlayiqdir.

Şahmat taxtası arxasında hər gediş düşünülür, hər qərarın nəticəsi nəzərə alınır. Əsgərlər üçün bu oyun həm maraqlı istirahət, həm də diqqəti və məntiqi təfəkkürü inkişaf etdirən faydalı məşğuliyyətdir. Beləliklə, onlar hərbi xidmətlərində asudə vaxtlarını səmərəli keçirir, gündəlik xidmət həyatına xoş rəng qatırlar.

Hüsniyyə NƏSİROVA
"Azərbaycan Ordusu"

Hərbi terminlər



Ballistika hərbi elmdə silahdan atılan mərmilərin hərəkətini, uçuş xüsusiyyətlərini və hədəfə çatdıqdan sonra göstərdiyi təsiri öyrənən mühüm elm sahəsidir. O, atəşin nəticələrinə təsir edən fiziki qanunauyğunluqların araşdırılmasını, silah və döyüş sursatlarının xüsusiyyətlərinin qiymətləndirilməsini, atəşin dəqiqliyinin təmin olunmasını əhatə edir. Ballistikanın elmi əsaslarının öyrənilməsi atıcı silahlardan artilleriya sistemlərinədək müxtəlif silah növlərinin fəaliyyət prinsiplərini anlamaq baxımından əhəmiyyət daşıyır. Ballistikanın əsasını mərminin hərəkətinə təsir göstərən fiziki proseslərin öyrənilməsi təşkil edir. Bu proseslər yalnız mərminin silahın lüləsində hərəkəti ilə məhdudlaşmır. Mərminin lülədən çıxdıqdan sonra havada hərəkəti, trayektoriyası, uçuş zamanı sabitliyi və hədəflə qarşılıqlı təsiri də ballistikanın tədqiqat predmetinə daxildir. Buna görə də ballistika silahların və döyüş sursatlarının texniki xüsusiyyətlərinin öyrənilməsində, atəşin nəticələrinin təhlilində və silah sistemlərinin təkmilləşdirilməsində mühüm rol oynayır.

Öyrənilmə predmetinə görə ballistikanın əsas istiqamətləri daxili, xarici və hədəfə çatma (son mərhələ) ballistikasıdır. Bəzi elmi və hərbi-texniki mənbələrdə keçid ballistikası da ayrıca istiqamət kimi fərqləndirilir.


Daxili ballistika mərminin atəş zamanı silahın lüləsində hərəkətini və bu hərəkəti şərtləndirən prosesləri öyrənir. Atəş zamanı alışdırıcı elementin işə düşməsi, barıtın yanması nəticəsində qazların yaranması, lülə daxilində təzyiqin dəyişməsi və mərminin ilkin sürət qazanması bu sahənin əsas tədqiqat mövzularındandır. Həmin proseslərin xüsusiyyətləri silahın işinə, mərminin lülədən çıxış sürətinə və atəş göstəricilərinə təsir edir. Daxili ballistikanın öyrənilməsi silahın etibarlı və təhlükəsiz fəaliyyətinin qiymətləndirilməsi baxımından da əhəmiyyətlidir.

Xarici ballistika mərminin lülədən çıxdığı andan hədəfə çatdığı anadək hərəkətini araşdırır. Bu mərhələdə cazibə qüvvəsi, havanın müqaviməti, atmosfer şəraiti, mərminin forması və uçuş zamanı sabitliyi onun trayektoriyasına təsir göstərir. Mərminin ilkin sürəti və digər fiziki xüsusiyyətləri də uçuşun xarakterini müəyyənləşdirən amillərdəndir. Xarici ballistikanın öyrənilməsi mərminin hərəkət qanunauyğunluqlarını anlamağa, atəşin dəqiqliyinə təsir edən amilləri qiymətləndirməyə və nəzəri hesablamaların əsaslandırılmasına imkan verir.

Keçid ballistikası mərminin lüləni tərk etməsi ilə xarici mühitdə sərbəst uçuşunun formalaşması arasındakı keçid proseslərini əhatə edir. Bu mərhələdə lülədən çıxan qazların təsiri və mərminin ilkin hərəkət xüsusiyyətlərində baş verən dəyişikliklər araşdırılır.

Hədəfə çatma ballistikası isə mərminin hədəflə təmasından sonra baş verən prosesləri və onun göstərdiyi təsiri öyrənir. Bu istiqamət mərminin maneə ilə qarşılıqlı təsirini, nüfuzetmə xüsusiyyətlərini, konstruksiyasından və təyinatından asılı olaraq təsir mexanizmlərini əhatə edir. Hədəfin materialı və quruluşu, mərminin fiziki xüsusiyyətləri, eləcə də təmas şəraiti nəticəyə təsir göstərən amillərdəndir. Bu sahənin tədqiqi döyüş sursatlarının təsir xüsusiyyətlərinin qiymətləndirilməsi və müvafiq texniki həllərin işlənib hazırlanması baxımından əhəmiyyətlidir. Ballistikanın praktiki əhəmiyyəti hərb işinin müxtəlif sahələrində özünü göstərir. Atıcı silahların, artilleriya qurğularının və digər mərmi atan sistemlərin fəaliyyətinin qiymətləndirilməsi, döyüş sursatlarının texniki xüsusiyyətlərinin araşdırılması, sınaqların nəticələrinin təhlili və atəş dəqiqliyinə təsir edən amillərin müəyyənləşdirilməsi bu elmin tətbiq sahələrinə daxildir. Ballistik tədqiqatlar silah sistemlərinin layihələndirilməsi, istismar göstəricilərinin qiymətləndirilməsi və onların etibarlılığının artırılması üçün elmi əsas yaradır. Müasir dövrdə hesablama üsullarının, ölçmə vasitələrinin və modelləşdirmə texnologiyalarının inkişafı ballistik proseslərin daha ətraflı öyrənilməsinə şərait yaradır. Kompüter modelləri vasitəsilə mərminin hərəkəti və müxtəlif fiziki amillərin ona təsiri təhlil edilə bilir.

Beləliklə, ballistika silah və döyüş sursatlarının fəaliyyətini fiziki qanunauyğunluqlar əsasında izah edən, atəşin dəqiqliyinə və mərminin təsir xüsusiyyətlərinə təsir göstərən amilləri araşdıran mühüm hərbi-elmi sahədir. Onun əsas anlayışlarının mənimsənilməsi silah sistemlərinin imkanlarını, iş prinsiplərini və texniki xüsusiyyətlərini düzgün anlamağa kömək edir.



Hazırladı:
Emil MURADLI
"Azərbaycan Ordusu"

İdman



Azərbaycan voleybol klubu Danimarkada qələbə qazanıb

Azərbaycanın "DH Volley Baku" voleybol klubu Avropa kuboku turniri çərçivəsində səfərdə Danimarkanın "Holte IF" komandasını 3:1 hesabı ilə məğlub edib.

Danimarkada yaşayan soydaşlarımız da Azərbaycan komandasına xüsusi dəstək göstəriblər. Danimarka Azərbaycan Vətən Cəmiyyətinin sədri Mehriban Əliyeva və təşkilatın üzvləri Holtedə keçirilən qarşılaşmanı izləyərək komandamıza azarkeşlik ediblər.

Danimarkada qazanılan qələbə "DH Volley Baku" komandasına cavab oyunu öncəsi üstünlük qazandırıb. Növbəti mərhələyə vəsiqənin taleyi noyabrın 5-də Bakıda keçiriləcək cavab qarşılaşmasından sonra müəyyənləşəcək.

AZƏRTAC-ın materialları əsasında

Baş leytenant Aslanov Şahlar Əjdər oğluna verilmiş MN № 0063552 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Gizir İmanov Elxan Salman oğluna verilmiş SQ № 0028684 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Mikayılov Əli Mehman oğluna verilmiş AD № 0071096 nömrəli, çavuş Abbasov Təzahür İbrahim oğluna verilmiş AD № 0064530 nömrəli, əsgər Əliyarov Tural Əliyar oğluna verilmiş AD № 0044922 nömrəli, əsgər Hacıyev Tərlan Hacıbala oğluna verilmiş AD № 0006066 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 901
Nüsxə 3653